# Ali pedaqoji məktəblərdə tələbələrin biologiyanın tədrisi metodikası fənnində müasir təlim metodlarından istifadəsinin zəruriliyi

**Gülşən Hacıyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*ADPU*
**Email:** gyulshan.gadzhiyeva@mail.ru

**Rəyçilər:** biol.ü. f.d., dos. E.F. Səfərova,
p.ü.f.d.,dos. T.S. Paşayev

**Açar sözlər:** ənənəvi, interaktiv, metod, təlim, idrakı, mühazirə
**Ключевые слова:** традиционный, интерактивный, метод, обучение, мыслительный, лекция
**Key words:** tradition, interactive, method, learning, thinking, lecture

Son dövrdə pedaqogikaya və fənlərin tədrisi metodikasına aid dərslik və dərs vəsaitlərində də fəal təlim metodları ilə bağlı geniş məlumatlar verilmişdir. Araşdırmalar zamanı məlum oldu ki, ənənəvi təlim metodlarından yazanlar ənənəvi təlim metodlarını, fəal təlim metodlarından yazanlar isə fəal təlim metodlarını ideallaşdırırlar. Biz isə tədqiqatımızda hər iki metodun vəhdətdə istifadəsinin təlimin keyfiyyətinə təsirini araşdırmağa çalışmışıq.

Metodların tədrisində məqsəd müxtəlif fənlərin tədrisi prosesində istifadə olunan ənənəvi və interaktiv metodların didaktik və psixoloji problemlərini araşdırmaqdan, interaktiv və ənənəvi metodlardan vəhdətdə istifadənin forma, vasitə və yollarını üzə çıxarmaqdan, imkan və yollarını müəyyənləşdirməkdən, onlardan vəhdətdə istifadənin təlimin keyfiyyətinə təsirini üzə çıxarmaqdan ibarətdir.

Təhsilverici, tərbiyəedici mühit, bilik və bacarıqların müstəqil şəkildə əldə edilməsinə şərait yaradılarsa, interaktiv və ənənəvi təlim metodlarından sistemli, ardıcıl və vəhdətdə istifadə edilərsə, təlimin keyfiyyəti yüksələr.

Ümumiyyətlə, təlimdə prosesin mahiyyəti araşdırılmalı, təlim metodlarında istifadənin didaktik və psixoloji problemləri üzə çıxarılmalı, təlim prosesində interaktiv və ənənəvi təlim metodlarının vəhdətdə istifadəsi yeni pedaqoji texnologiyanın tərkib hissəsi kimi təhlil edilməlidir.

Ali məktəbdə biologiyanın tədrisi metodikası fənninin tədrisində interaktiv metodların ənənəvi metodlarla qarşılıqlı əlaqəsi tələbə və gənclərin idraki-emosional inkişafına, bütövlükdə şəxsiyyətinin hərtərəfli inkişafına, onların təliminin, müstəqilliyinin inkişafı imkanlarının yüksəlməsinə səbəb olur.

Təlim keyfiyyətinin yüksəldilməsi ənənəvi və interaktiv metodlardan vəhdətdə istifadənin səmərəsindən bilavasitə asılıdır.

Əsaslandırılmışdır ki, təlim qarşıya qoyulmuş məqsədə müvafiq olaraq tələbələrin bilik, bacarıq, vərdişləri mənimsəməsinə, əqli qabiliyyətləri və potensial imkanlarının inkişafına, özünütəhsil bacarıqlarının möhkəmləndirilməsinə, onlarda dünyagörüşünün formalaşdırılmasına xidmət edir. Təlim təhsilalma prosesidir. Təlim prosesində şagirdlər elmi bilikləri mənimsəyir, müəyyən bacarıq və vərdişlər əldə edirlər. Təlim təhsil verməklə yanaşı, həm tərbiyəedici, həm inkişafetdirici, həm formalaşdırıcı, həm də nəzarətedici funksiya

daşıyır.

Tələbələrin fərdi xüsusiyyətlərinin (qavrama, dərketmə, nəticə çıxarma qabiliyyətləri) müxtəlif olmasına baxmayaraq biologiyanın tədrisi metodikası fənnində təlim prosesində interaktiv və ənənəvi təlim metodları vəhdətdə tətbiq ediləndə onlarda sərbəst və yaradıcı düşüncə formalaşır, müqayisə etmək, tutuşdurmaq, fərqləndirmək, ümumiləşdirmə aparmaq və tədqiqatçılıq qabiliyyəti yaranır.

Bu gün əsas məqsəd tələbələrə çox bilik vermək deyil, onlara öyrənməyin yollarını öyrətməkdir. Həm təlim prosesində, həm də auditoriyadankənar tədbirlər prosesində onlarda düşünmə qabiliyyətini, fikri fəallığı, müstəqilliyi inkişaf etdirmək əsas məsələlərdən biridir. Şəxsiyyətə yönəlmiş təlim prinsipinə uyğun olaraq qurulan təlim prosesi yalnız tələbənin tədqiqatçı mövqeyinə, onun idrak maraqlarına əsaslananda səmərəli olur. Təqdim edilən informasiyanın ziddiyyətli və yarımçıq olması səbəbindən tələbələr müəyyən gərginlik yaşamalı olurlar. Bu cür vəziyyətin yaradılması tələbələri qarşıya qoyulmuş məqsədə nail olmaq yollarını axtarmağa sövq edir və bununla da onların təfəkkürünü fəallaşdırır. Bu da təbii ki, tələbələrdə idrak fəallığı yaradır, onların tədqiqatçılıq qabiliyyətinin formalaşmasına kömək edir.

Təlim prosesinin bu cür təşkilində müəllim bələdçi (fasilitator) rolunda çıxış etməlidir. Bu, müəllimin liderliyinin yeni tipidir. Bu liderlik müəllimlə tələbənin təhsil məqsədinə nail olmağa yönəldilmiş birgə fəaliyyətinə əsaslanır və onların hər ikisi təlim prosesinin bərabər hüquqlu tərəf-müqabillərinə çevrilir. Bu zaman müəllim nüfuz sahibi kimi tələbələrə diktə etmir, böyük Çin pedaqoqu Konfutsi demişkən, müəllim şagirdin səviyyəsinə enir, özünü ondan yüksəkdə tutmur, sanki onunla bir yerdə inkişaf edir, öyrənir. O, yazırdı: «Alicənab müəllim şagirdi öyrədəndə və tərbiyə edəndə onu irəliyə aparır, arxasınca dartmır, onda maraq oyadır, məcbur etmir, ona yol göstərir, lakin yolu sərbəst getməyə imkan yaradır. Nə qədər ki, o şagirddə maraq oyadır, məcbur etmir, deməli, şagirdin bilik qazanması asanlaşır. Nə qədər ki, o şagirdə yol açır, deməli, ona düşünmək imkanı verir. Müəllim və şagirdin arasında müstəqilliyin yaranması, bilik qazanmaq vərdişlərinin aşılanması və şagirdə düşünmək imkanının verilməsi məhz bunlar müəllimlik məharəti deməkdir».

Konfutsinin sözlərini eyni zamanda tələbələrə də aid etmək olar.

Təlim müəllim və tələbələrin xüsusi təşkil olunmuş şəraitdə qarşılıqlı fəaliyyətidir və onun mərkəzi həlqəsi idrak prosesidir. Təlim anlayışı və onun mahiyyətinə müxtəlif yanaşmaların ümumi cəhəti ondan ibarətdir ki, təlim tələbələrin potensial imkanlarının açılmasına, əqli qabiliyyətlərinin, əxlaqi keyfiyyətlərinin inkişafına və dünyagörüşünün formalaşmasına istiqamətlənmiş mütəşəkkil bir prosesdir.

Tarix boyu ənənəvi metodlar təlim məqsədlərinin reallaşmasında mühüm rol oynamışdır. Mövcud təlim sistemlərinə müasirlik nöqteyi-nəzərdən yanaşdıqda artıq ənənəvi monoloji təlimə nisbətən dialoji təlimin, müəllimin_aparıcı rolu ilə müqayisədə onun istiqamətverici, bələdçi, "fasılitator" rolunun üstünlüyü daha çox nəzərə çarpır. Tələbələrdə fikri fəallığı, sərbəst düşüncə tərzini, məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirmək baxımından interaktiv ənənəvi təlimin zəruriliyi, onun ənənəvi metodlarla vəhdətdə istifadəsinin vacibliyi bütün aktuallığı ilə meydana çıxır.

Təlim prosesində ənənəvi və interaktiv metodlardan vəhdətdə istifadənin ən mühüm şərtləri sırasında təlimin məhsuldarlığının idraki əlaqələrin həcmindən və intensivliyindən; təlimin keyfiyyətinin qarşılıqlı öyrənmənin intensivliyindən və müəllimin tələbələrlə ünsiyyətinin keyfiyyətindən asılılığı; meyl, maraq və qabiliyyətlərin nəzərə alınması və s. mühüm yer tutur.

Hazır biliklərin müəllim tərəfindən ötürülməsi, dərketmə fəallığının passiv reproduktiv xaakter daşıması ilə müşaiyət olunan ənənəvi fəlim metodları" ilə müqayisədə təfəkkürün inkişafına stimul yaradan “hafizə məktəbindən” “təfəkkür məktəbinə” keçməyə imkan verən, idrak motivasiyası yaradan fəal təlim metodları tələbələrin didaktik münasibətlərin aktiv iştirakçısına, çevrilməsinə imkan verir. Bu isə həmin metodların vəhdətdə tətbiqinin zəruriliyini daha qabarıq şəkildə üzə çıxarır.

Ali məktəblərdə biologiyanın tədrisi metodikasından mühazirələrin oxunması zamanı müəllimin aydın, ucadan deyilən mühazirəsində nitq mədəniyyəti də əsas məsələlərdən biridir.

Nitq mədəniyyəti dilin qrammatik qaydaları əsasında danışmaq, fikri məntiqi, aydın, yığcam, parlaq, təsirli ifadə edə bilmək üçün münasib sözlər seçmək və onlardan cümlələr qurmaq, dilin üslubi imkanlarından, rəngarəng ifadəlilik vasitələrindən bacarıqla istifadə edə bilməkdir.

Mühazirəçinin, xüsusilə müəllimin bu keyfiyyətə — yüksək nitq mədəniyyətinə yiyələnməsi vacibdir, zəruridir. Bu, müəllimin ümumi mədəni səviyyəsinin başlıca göstəricilərindəndir. Müəllimin dərin biliyə, geniş məlumata sahib olması heç də kifayət deyil, həmin bilik və məlumatı dinləyiciyə çatdırmaq da lazımdır. Bunun üçün başlıca vasitə sadə, aydın, zəngin, orijinal, təsirli nitqdir. Müəllimin məruzəsi, mühazirəsi, çıxışı, nitqi, şərhi, izahı, suallara verdiyi cavablar və hətta adi danışığı öz kamilliyi, düzgünlüyü, emosionallığı, estetik gözəlliyi və s. baxımından başqalarından seçilməlidir. Şagird və tələbələr müəllimin danışığına maraq göstərməli, ondan xüsusi zövq almalıdırlar. Maarifimizin, məktəbimizin tarixində öz dərin məzmunlu, təsirli çıxışları ilə dinləyicilərin rəğbətini qazanmış müəllimlər natiqlər çox olmuşdur.

Azərbaycan natiqlik məktəbinin görkəmli nümayəndələrindən biri də Xəlil Rza Atatürk olmuşdur. O, istedadlı alim, gözəl şair olmaqla yanaşı, həm də məşhur söz ustası, natiq idi. Xəlil Rza Atatürk bir müddət ali məktəbdə Azərbaycan ədəbiyyatından mühazirələr oxumuşdur. Tələbələr bu mühazirələri xüsusi maraqla dinləyirdilər. Sonrakı illərdə

Xəlil Rza Atatürk özünün daha geniş auditoriyalarda, meydanlardakı odlu çıxışları, yüksək temperamentli zəngin və parlaq nitqləri ilə xalqın azadlıq və müstəqillik uğrundakı mübarizəsinə güclü təkan vermişdir. Çox təəssüf olsun ki, belə adamların danışıq tərzi, natiqlik məharəti barədə hələ indiyə kimi müəyyən bir vəsait hazırlanıb istifadəyə verilməmişdir. Bu vəsait yenicə fəaliyyətə başlayan cavan müəllimlərə və natiqlik sənətinə yiyələnmək arzusunda olan digərlərinə böyük fayda verə bilər.

**Məqalənin aktuallığı.** Ali pedaqoji məktəblərdə tələbələrin biologiyanın tədrisi metodikası fənnində müasir təlim metodlarından istifadə olunması orta məktəbdə olduğu zəruridir.

**Məqalənin elmi yeniliyi.** Ali pedaqoji məktəblərdə təlim prosesində ənənəvi və interaktiv metodlardan vəhdətdə istifadə ən mühüm şərtlərdən biridir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ali pedaqoji məktəblərdə həm ənənəvi, həm də fəal dərs tipindən istifadə edilərək dərslər tədris olunur.

## Ədəbiyyat

1. Abbasov A. N. Pedaqogika: müxtəsər konspekt və sxemlər. Bakı, 2007.

2. Ali təhsilin bakalavriat pilləsiində müəllim hazırlığı üzrə “Pedaqogika fənninin kurikulumu”. Bakı: Elm və təhsil, 2014.

3. Yeni təhsil proqramlarının ( kurikulumların) tətbiqi məsələləri. Bakı, 2014.

4. Veysova Z. Fəal təlim metodlarına giriş kursu. Bakı, 2004

**Г. Гаджиева**

## Необходимость использования современных методов обучения в методике обучения студентов высших педагогических школ

## Резюме

Сегодня основная цель — не чрезмерная подача студентам знаний, а обучение их путям получения знаний. И в процессе обучения, и во внеаудиторной работе одним из основных вопросов является развитие у студентов навыков мышления, мыслительной активности, самостоятельности.

**G. Hajıyeva**

## The need to use modern teaching methods in the teaching methods of students of higher pedagogical schools

## Summary

Today, the main goal is not to over-serve students with knowledge, but to teach them ways to gain knowledge. And in the process of learning, and in extracurricular work, one of the main issues is the development of students thinking skills, mental activity, and independence.

**Redaksiyaya daxil olub:** 10.05.2019